# SEVDASININ GÖZÜNDƏ KÖZƏRƏN ABİDƏ QADIN




*Şəfəq Nasir,*
*yazıçı, publisist, filologiya üzrə fəlsəfə doktoru*


**İnsan, xarakterində kök atmış bütün təzadlı xüsusiyyətləri - sadəliyi, sərtliyi, mülayimliyi, hay-harayı, qaradinməzliyi ilə Ana təbiətə bənzəyir. Bəzən tutqun, bəzən kədərli, yüklü, qayğılı, qaynar, sakit, təlatümlü... Bəzən yarpaq-yarpaq, ləçək-ləçək açılır, ətrafa ətir saçır, xoş ovqat yaradırlar. Təbiət coşub-daşdığı kimi, insan da qəlbində tüğyan edən arzuları, istəkləri ilə məcrasına sığmır, Ana torpağın sinəsində hifz etdiyi canlı sərvəti, bitirdiyi gülü, çiçəyi, laləli düzləri, yaşıl ormanlarıtək sevgi-sevincindən aşıb-daşır. Bir vaxt da gəlir, Təbiət özünün yaratdıqlarına (ən çox da insana!) qarşı amansız, qəddar olur, ona elə qənim kəsilir ki... Uçurur, dağıdır, alt-üst edir taleyini, amma... bu qasırğalar çox zaman məhvə aparmır, sınaq kimi yazılır İnsanın ömrünə. Elə bütün bunlara görə həmişə düşünürük ki, Təbiət Tanrının yaratdığı möhtəşəm bir sənət əsəridir, İnsan bu əsərin ən böyük qəhrəmanı, əsrarəngiz obrazıdır. Təbiət özünün yaratdıqları ilə həmişə valehedicidir. İnsan da qurub-yaratdıqları ilə möhtəşəmdir, əzəmətlidir. Bunlar ilk yaranışdan təbiətlə insan arasında olan oxşarlıq, paralellik deyilmi...**

## *Özünün təzadlı taleyi*

- sağlam ailə mühitinin içində pöhrə tutub yetişən uşaqlığı, yeniyetmə və gənclik çağlarının səhər şehitək paklığı, gözündə-könlündə şəfəq saçan, mayası ülvi sevgiylə yoğrulmuş, bəxtəvərliklə süslənmiş ailə səadəti içrə yaşadığı illər... və qəfil gələn qara yelin çiçəklərini soldurduğu ömür bağçası... təzadlıdır, deyilmi...

Zərif, gözəl bir xanımın yaşadığı ömür dastanı... Amma bu gerçək dastan qəhrəmanının zərifliyi ilə yanaşı sədaqətində, dözümündə, qüdrətində bir qranit sərtliyi də var. Zaman-zaman taleyində qopan tufanlar belə, onu yıxa bilmədi, yandırıcı günəşdən ərimədi, qurumadı, itmədi. Xoşbəxt çağlarının yasəmən ətirli şipşirin xatirələrindən aldığı mənəvi gücünə, dağ vüqarına söykəndi. Fəaliyyətində var oldu, şərəfli müəllim sənətində işgüzrlığı, qayğısı, zəhmətilə cəmiyyətə vətəndaş yetişdirmək missiyasının öhdəsindən layiqincə gəldi... və belə bir fərqli, nümunəvi yaşam tərzinə bu gün də davam edir.

**Kimdi bu zərif, qüdrətli varlıq? Malik olduğu özəllikləri ilə ictimai mühitdə ali ehtirama layiq, heyrət doğuran bir Tanrı bəndəsi! Müdrikliyi ilə mənəvi ağrılarına üstün gələn, mübarizliyi, sədaqəti, insanlara vəfası, yaxşılığı, nəcibliyi ilə yaşatmağa qadir olan Azərbaycanın dilbər sonalarından biri - Sona Çərkəz!**

## *Ziyalı cəmiyyətində*

çoxumuzun gerçəkdən bir abidə qadın kimi tanıdığımız ağıllı, təmkinli, cəfakeş xanımın uzun illərdi gözlərinin dərinliyinə çökmüş tənhalığının üşəntisindən qiyam qoparan həsrət dolu baxışları yandırıb-yaxır məni. Hələ abidə qadın tituluna qədər Sona xanımın duyğular, hisslər içində yaşadığı həyat mahir bir rəssamın fırçasından çıxmış, gözə-könülə rahatlıq gətirən əlvan bir tablonu xatırladırdı. Ancaq bu həyat tablosu hələ yarımçıq idi, tamamlanmamışdı, o boşluqlar yaşandıqca rəssamın fırçası da öz qüdrətini göstərəcəkdi...

***Sona Məmməd qızı Məmmədova dünyaya gələndə təbiət may günəşinin ılıq şəfəqlərilə cilvələnir, ətrafa gözəllik saçırdı. Boş çöllərdə, düzdüzəngahda boy atmış yaşıl otlar, rəngarəng çəmən çiçəkləri, bağçalarda yanağı çatlamış qızılgüllərlə nazlanan təbiət bir bəzəkli gəlinə bənzəyirdi. Bu hüsnündə təbiət özünün füsunkarlığı ilə insanı ilhamlandırır, yaşamaq eşqinə gəl-gəl deyirdi. Bütün bu gözəlliklər dünyaya təzəcə göz açmış qızcığazın ruhunda, gözündə özü ilə bərabər bir duyğusallıq, həyata bağlılıq da doğurmuşdu. May qızının insanlara sevgisi, sayğısı, təbiətin özü kimi əsrarəngizliyi vücudunda, gözündə könlündə cilvələnirdi.***

Bəlkə də ailənin ilki olduğundan təkcə valideynləri deyil, qohum-əqraba, dost-tanışlar tərəfindən də çox sevildi, bəxtiyarlıq içində boy atdı, böyüdü. Orta məktəbdə elmin ilk pillələrini uğurla qalxdı, bundan sonra həyat dərslərini keçməkdən ötrü qarşısındakı enişli-yoxuşlu bir yola qədəm qoydu. Nə xoş ki bu yolda o tək olmadı. Adil Allah ona bir yol yoldaşı, ömür ortağı yetirdi ki, cütlükdə çətinlikləri keçə bilsinlər. Hər yerdə hər zaman bir cüt göyərçin təki ötsünlər. Allah onu həyatda bir gerçək obraz kimi tamamlamaqdan ötrü yarlı-yaraşıqlı, uca boylu, ağıllı, dərrakəli filoloq Çərkəz Quliyevlə qoşalaşdırdı. Bu necə baş verdi...

***Gəncin bu yaraşıqlı, tər çiçəyə bənzəyən qızı gördüyü gündən ürəyinə xoş bir istək axdı, sakit, səssiz ötən günləri öz ahəngini dəyişdi. Ürəyində pöhrələnən sevgi anbaan böyüdü, kök atdı, gözəl Sona həyatının şahzadəsi oldu. Qıza məktublar yolladı. Bu şirin, ılıq istəkdən Sonanın da qəlbinə xəfif bir sevgi qığılcımı düşdü. Sona orta məktəbi bitirəndən sonra evləndilər.***

Qız köklü-köməcli bir sevgi ağacı sandığı Çərkəzin qanadı altında bəxtəvər ömrünə başladı. Sona M.F.Axundov adına Azərbaycan Pedaqoji İnstitutun (indiki Slavyan Universiteti) Rus dili və ədəbiyyatı fakültəsində (1968-1973) təhsil aldı. Əmək fəaliyyətinə Saatlı rayonunda orta məktəbdə rus dili müəllimi kimi başladı. 1970-ci ildən cütlük ömürlərinin Bakı həyatına qədəm qoydular.



Hər ikisi də əmək fəaliyyətini Azərbaycan Dövlət Universitetində davam etdirdi. Çərkəz müəllim elmi tədqiqatla məşğul oldu. Yeri gəlmişkən, Çərkəz Quliyev Universitetə gəldiyi ilk vaxtlarda Mir Cəlal Paşayevin məsləhəti, yolgöstərənliyi, xeyir-duası ilə "Süleyman Rəhimovun əsərlərində folklor" mövzusunda namizədlik işi götürərək illərlə üzərində mükəmməl işlədikdən sonra müvəffəqiyyətlə müdafiə etmişdir. Çərkəz Quliyevin yoxluğundan sonra Sona xanım onun elmi işini "Tükənməz mənbə"adı ilə nəşr etdirdi.

**Sona xanım isə Universitetdə Humanitar fakültələr üzrə Rus dili kafedrasında çalışdı. Burada o, ilk vaxtlardan gələcəkdə sənətinin əsl xiridarı olmaqdan ötrü kafedranın iş prinsipinə, tələbələrlə ünsiyyətin qurulmasına, onların yetişməsində pedaqoq zəhmətinin çətinliklərinə bələd oldu, bir növ hazırlıq keçdi. Odur ki, Sona Quliyevanı Humanitar fakültələr üzrə Rus dili kafedrasının müəllimi vəzifəsinə keçirəndə o, müəyyən müşahidə və təcrübəyə malik olduğundan işini qura bildi, tələbələri ilə tez dil tapdı. Onlarda tədris etdiyi fənnə böyük maraq oyatdı, vətəndaş cəmiyyətinin yaranmasında gənc qüvvələr kimi iştirakçı olmalarına, xalqına, vətəninə böyük sevgi, bağlılıq yarada bildi. Və bu gün də zəngin pedaqoji təcrübəsi, ziyalılığı, mənəvi keyfiyyətləri ilə doğma Universitetində fərqli və yeni düşüncəyə malik ümdə bir şəxsiyyət olduğundan onu çox sevirlər...**

Sona xanımla Çərkəz müəllim çoxlarının qibtə etdiyi xoşbəxt bir ömür yaşayırdılar. Bəxtəvərdilər, ailədə iki oğul övladı dünyaya gəlmişdi. Hər yerdə - Universitetdə, ictimai yerlərdə, qohum-əqraba içində qoşa görünürdülər. Çərkəzin Sonası, Sonanın Çərkəzi... Onları belə nişan verirdilər... Universitetdə müəllimlər də, tələbələr də bu yaraşıqlı cütlüyə böyük hörmətlə, ehtiramla yanaşır, onları bir məhəbbət dastanının qəhrəmanları kimi görürdülər. Həyat cütlüyün gözündə ilin bütün fəsillərində bahar idi, yaz idi...

## *Sona Çərkəzin çap olunmuş kitablarında*

Çərkəz müəllimin ona yazdığı məktublarını, gündəliyini oxumuşam. Və hiss etmişəm ki, Sona xanım bu gündəliyi bəzi ixtisarlarla çap etdirib. Düz eliyib, axı sevgi məktubları yalnız aşiqlərin özünə məxsusdu...

Amma oxuduqlarım da düşüncəmdə bu iki aşiqin, ömür-gün yoldaşının gül ətirli ömür yaşadıqlarını, uzaqdan-uzağa tanıdığım, amma ünsiyyətdə olmadığım Çərkəz müəllimin də mənəvi aləmini duymağa, bitkin obrazını təsəvvür etməyə yetdi...

Hiss edirəm ki, qələm özümdən ixtiyarsız qəhrəmanımın ömrünə nəqş olunmuş əlvan nağılından yazır. Bu, bəlkə indiyə qədər Sona xanım haqqında oxuduğum bir çox yazıların ("Çərkəzin Sonası belə ola bilərdi", "Sözdür onun sirdaşı", "İydə çiçəyinə yazılan məktub", "Çərkəz müəllimin Sonası", "Bu da bir daş yazısıdır", "Dağ başı dolu gözlər", "Əfsanəvi qadın", "Yaşamaq yanmaqdır...") təsirindəndir.

Yazı müəlliflərinin hamısı onun kədərli ovqatından, yarını itirdikdən sonra qurumayan göz yaşı, həsrət, yanğı içində keçən həyatından bəhs edir, qəmqüssəsini vəsv etdiyi poetik yaradıcılığından danışır və Sona xanımı ən çox bu prizmadan tanıtmağa çalışırlar.

Amma mənə görə Sona Çərkəz bütöv vətəndaşdı, onu bütöv şəkildə, mənəvi zənginliyi, əməli fəaliyyəti ilə təqdim etmək, tanıtmaq da qəhrəmanımın obrazına bir tamlıq verər...

## *Sözümün bu yerində*

**ordan davam edim ki, Universitet Sona müəllimdən ötrü bir məbədgahdı, həyat romanının - Çərkəzli-Çərkəzsiz günlərinin sevincli-kədərli xatirələrinin hafizəsini közərtdiyi, ruhunu alışdırdığı yuvası, doğmaca odasıdır. Taleyini Universitetlə bağlayan Sona müəllim həyat məktəbinin böyük hissəsini də burda keçib. Olmasaydı Universitet həyatı, Sona Çərkəz dərdini, kədərini müdrikcəsinə çəkəmməz, həm də nümunəvi pedaqoq kimi püxtələşə bilməzdi ki! Dərs dediyi, yetişdirdiyi tələbələrinin özlərinin də etiraf etdikləri kimi, Sona Çərkəz ilk növbədə onların həyat müəllimi oldu. Ən başlıcası, tələbələrinin mənəvi anası olmağı bacardı. Gənclərə böyük qayğısı, məhəbbəti də Sona müəllimi onların gözündə ucaltdı. Zatən balalarımızın sağlam ruhda böyüməsindən ötrü belə bir qayğı və doğmalıq çox vacibdir. Kollektivində hamıyla doğmalaşan Sona müəllim heç kəsin zəhmətini, əməyini itirmədi, unutmadı. Elə hər zaman da gözündə-könlündə əziz insanlar kimi xatırladığı bu şəxsiyyətlərin adları dilindən düşmür.**

Sona xanım xatırlayır ki, universitetə gəldiyi ilk vaxtlardan Çərkəz müəllim mərhum professorlar Firidun Hüseynov və İnayət Bəktaşi ilə dostlaşdı, qardaş oldu.

Eləcə də elmi-ədəbi əlaqələrində, pedaqoji fəaliyyətində həmfikir, məsləkdaş olduğu insanlar - yazıçı, tənqidçi, ədəbiyyatşünas alim, Mir Cəlal Paşayev, akademiklər Tofiq Hacıyev, Nizami Cəfərov, professorlar Fəridə Vəlixanova, Qasım Qasımzadə, Yəhya Seyidov, İfrat Əliyeva, Azad Nəbiyev...

Çərkəz müəllimin elmi-ədəbi mühitdə, Universitet həyatında doğmalaşdığı, bölüşdüyü insanlar oldu. Çərkəz müəllimdən sonra bu böyük şəxsiyyətlər (həyatda olanlar) eyni isti münsibəti, doğmalıqları ilə Sona xanımın yanında oldular. Dostlar bu qadının simasında Çərkəzi gördülər, onun ikinci həyatının davamından bir mənəvi rahatlıq tapdılar.

## *Doğru deyirlər ki,*

dünya yaxşı adamlardan xali deyil. Sona Çərkəzi sevənlərin sırası belə insanların sayəsində heyrət doğuracaq qədər böyüyür, genişlənirdi. Bu vəfalı, sədaqətli, vüqarlı qadının saf təbiətinin, ülvi sevgisinin hərarəti ürəkləri nurlandırırdı. Onun Azərbaycan qadınına xas olan keyfiyyətlərini bir çox qələm adamları yazılarında vəsv edirdilər. Onların hər biri Sona xanıma öz baxış bucağından yanaşsalar da həyatının ömür işığı Çərkəz müəllimdən sonra qadının yaratdığı Çərkəzli dünyasının cazibəsinə maraqlar daha böyük məna kəsb edirdi. Haqqında ilk yazını mərhum Xalq şairi Bəxtiyar Vahabzadə, ilk şeiri də professor Teymur Əhmədov yazdı. Bundan sonra Sona Çərkəz milli-mənəvi dəyərlərə söykənən həyatının ictimai əhəmiyyət kəsb etməsilə çoxlarının diqqətini cəlb etdi. Elə müəlliflər oldu ki, Sona xanımın həyatına bir neçə dəfə müraciət etdilər. Bu yazıların sırasında Esmira Şərkəzqızı, Aynur Bəşirli, Əntiqə Qonaq və bu məqamda adlarını unutduğum bir çox söz xiridarlarının qələm məhsullarında bu mükəddər, mükəmməl qadının obrazı əzəmətlə yaradılmışdı.

Şair, telejurnalist Telli Pənahqızının hazırladığı süjetlərdə Sona Çərkəzin həyatına qəfl yağan qara yağışların gətirdiyi zülmü, sitəmi böyük yanğı ilə təsvir olunmuşdur. Sona xanım dərdinin ürəyini basıb əzdiyi, hətta məhvə sarı sürüklədiyi vaxtlarda ona qayğı göstərən atasının dostu, milli mətbutımızın tanınmış simalarından olan Rəşid Mahmudovu həmişə böyük ehtiramla xatırlayır.

**Rəşid müəllim onun dərdini, təəssübünü öz balası kimi çəkdi, Sonaya, qələmdən ayrılma, dedi. Onun bir kitabını çap etdirdi. Sona xanımın özü də dözümü, dəyanəti, qədirkeşliyi, xeyirxahlığı, nəcibliyi, səliqə-sahmanı, prinsipiallığı ilə yaddaşlara naxışlandı...**

**(ardı var)**


Ədalət.- 2020.- 5 mart.- S.5.